

## HAFİZ ƏLİMƏRDANLI

# QOCALMIŞAM ƏGƏR

Qapını döydülər...
Soruşdum, kimsən?
Qocalıq gəlibdir...
Qapını aç sən.
Cavanlıq getmişdir, saçın ağarmış,
Soyuq küləklər də danışır səndən.

Tələsmə, söylədim, hələ zaman var,
Cavanlıq ötsə də ürəyim çağlar.
Bir çıraq qəlbimdə hələ ki, yanar,
Yaratmaq əzmidir, ayrılmaz məndən.

Keçsə də baharım, xəzan yol açar,
Yaratmaq eşqindən qalmaram kənar.
Bax, budur qəlbimdə sonuncu qərar,
Danılmaz həqiqət, deyim ürəkdən.

Ürək yorularsa, qocalıq gələr,
Həyatda olandan qəlbim kövrələr.
Dostlardan istərəm, həsrətlə xəbər,
Yaşadar xatirə gələndə hərdən.

Qocalıq hörmətdir, qazansan əgər,
Deyərsən həyatın keçmədi hədər.
Bir soruş Hafizdən, deyər gör nələr,
Sözündə hikmət var, söylərsən, əhsən.

# İLLƏRİN İSTƏYİ KÖMƏK ETMƏKDİR

Bir zaman mən sənə "sevirəm" dedim,
O zaman çox uzaq, uzaqda qaldı,
Bir zaman söylədin, mənə sevgilim,
Bu dərdli dünyadan qəlbim kam aldı.

İllər ötüb keçdi, keçdi səninlə,
Könlümdə yenə də qalıbsan hələ,
İllərin həsrəti, onları dinlə,
Qəlbində yer alıb gəlməsin dilə.

Yaşadıq səninlə körpələr ilə,
Körpələr böyüyüb pərvazlandılar,
Bəlkə də sevinək hər ötən ilə,
Bəlkə də könlümdə həsrət kök salar.

Yox, yox...
Sevinir ürəyim bu günlər yenə,
İllərin adəti ötüb getməkdir,
Sevinir ürəyim qoy deyim sənə,
İllərin istəyi kömək etməkdir.

# QƏLBİM AXTARIR

Həyatın sevinci, qəmi, kədəri,
Dünyanın dolanbac yolunda nədir?
İnsanlıq yaranan günlərdən bəri,
Bu sual hər zaman ona verilir.

Sevinc anlarında gözünün yaşı,
Kədər gələn zaman niyə axmayır?
Dünyanın yolları həyat sirdaşı,
Qəlbinə qovuşub, səninlə qalır.

Bilinmir bu yollar haraya gedir,
Məqsədin onları saf-çürük edir.
Bəzən düzgün sayıb seçdiyin yollar,
Əzablar içində səni incidir.

Bu yolda bir qədər sevinc də olar,
Sevinc çox olarsa, qəlbin yorular,
Həyat sevinc hissi verməklə sənə,
Getdiyin yollara bələdçi qoşar.

Mürəkkəb həyatda tək sevincmi var?
Ürəyin həsrətlə nəsə axtarar.
Axtarış həm sevinc, həm də əzabdır,
Həyatı çəkilən əzablar duyar.

Əzaba qiyməti iztirab verər,
Məqsədin olarsa ürək dillənər,
Çəkdiyin əzablar həyatda bir gün,
Sevincə çatmağa yollar göstərər.

## ŞAİR ŞAİRDİRSƏ

Şair şairdirsə, qocaltmaz zaman,
Hər günün, hər ilin öz bəhrəsi var,
Gedər aylar bir-bir, hey dayanmadan,
Qəlbində şairin çox sözü qalar.

Şair şairdirsə, sözündə hikmət,
İllər ötüşdükcə, bir az da artar,
Həyatdan dərs alıb olarsa qismət,
Kağızda qələmdən incilər qalar.

Şair şairdirsə, sevgi, məhəbbət,
Qalar şeirində ötsə fəsillər,
Oxuyar gələcək nəsillər əlbət,
Əsrlər ötsə də könül sevinər.

## SEVİNCDƏN PAY VERİN

Hər kəsə bir zaman qismət həyatda,
Hər ömrün günlərdən öz ölçüsü var,
Kimisi piyada, kimisi atda,
Ömürdən günləri son yola salar.

Bu günlər gah sevinc, gah da ki, kədər,
Zamanı necə var, söylə kim saxlar?
Hərənin bəxtinə bir ömür düşər,
Bir gün çiçəklənsə, bir gün də solar.

Hər gələn ömürdən sevinc gözləyir,
Sevinc bir xəzinə, tapmaq çətindir,
Qəlbin axtarmağa onu səsləyir,
Qismətin olarsa, bir gün sənindir.

A dostlar, Hafizə bir qulaq asın,
Sevincdən pay verin dosta, tanışa,
Qəlblərdə kədərdən əsər qalmasın,
Ürəklər istərəm mənlə danışa.

## O GÜNLƏR ARTIQ ÖTÜB

I

O görüş yerindəyəm,
sənli keçən günləri,
Qaytarmaq fikrindəyəm,
mümkün olarsa geri.
Gördüyüm bulaq axır, şırıl-şırıl səmimi,
Xəyalımı aparır, ötən illərə kimi.
Yadıma hərdən düşür, görmək yenə istərəm,
Qəlbimi də hey üzür, hər dəfə neçə kərəm.
Günlər ötürlər bir-bir, növbələnir fəsillər,
Ürəyimi kövrəldir, unutmaq olur məgər?

II

Ordadır qoşa çinar,
qol-budağı pıçıldar,
Yenə bizi xatırlar,
bizdən ötrü darıxar.
Darıxır keçən günə, onun da qəlbi kövrək,
Şikayət edir mənə, məndən istəyir kömək.
İllər görüb işini,çinar tamam qocalıb,
Həyatın gərdişini, o da nəzərə alıb.
İncimə qəlbim deyir, zaman dəyişib çoxdan,
İndi qayğılar gəlir, qəm, kədəri çoxaldan.

III

Dağa gedən cığır da,
bizi gözləyir hələ,
Zirvələr salır yada,
ürəkdən gəlir dilə.
Bu cığır doğma bizə, heç yadına düşürmü,
Gələndə biz üz-üzə, xatirələr gülürmü.
Ay cığır, keçib zaman, illər o illər deyil,
Zaman verməyir aman, ömür yaman tez gedir.
Bizə əlvida deyin, təzə sevənlər gəlir,
Daha onları sevin, həyat belə dəyişir.

## SƏNİ DAİM YAŞADAR

*Mikayıl Müşviqə*

"Yenə o bağ olaydı",
Yenə nəğməli dövran,
Yenə məskən salaydı,
Qəlbində həmən o an.

Sənə zaman qıymadı,
Qıymadı "otuz yeddi",
Nəğmə deyən qəlbini,
O, parça-parça etdi.

Çox çalışdı qalmasın,
Səndən bir nişanə də.
Amma qaldı nəğmələr,
Hər bir sevən ürəkdə.

Silindi tarixlərdən,
Həmən mənəm deyənlər.
Şair ruhun yenidən,
Xoş nəğmələr söyləyər.

"Yenə o bağ olaydı",
Nəğmə istər ürəklər.
Kaş əbədi qalaydı,
Solmayaydı çiçəklər.

Səni ellər xatırlar,
Eşqinə nəğmə qoşar,
Nə qədər ki, Vətən var,
Səni daim yaşadar.
Səni daim yaşadar.

RÜBAİLƏR

## Sərf etmə ömrünü

Ey sərvət toplayıb sevinən cahil,
İtirdin ömürdən gör neçə fəsil,
Qisməti olarsa, bir gün, bir zaman,
Bir büküm kəfənlə gedəcək insan.

## Xəyanət eyləyir söylə bəs nədən?

Küçədə bir köpək hürürdü bərkdən,
Bir tikə çörəklə çəkilər səndən,
İllərlə çörəyi kəsdiyin insan,
Xəyanət eyləyər söylə bəs nədən?

## Biliklə qazanar insan etibar

Biliklə qazanar insan etibar,
Bilik olan yerdə hörmət də olar,

Hafiza...
Bilik bir sərvətdir xərcləsən bitməz,
Biliyin həyatda səni yaşadar.

## Bir zaman gördüm mən

Bir zaman gördüm mən dünyanı tamam,
Soruşdum özümdən nədir ki, cəzam,
Gah kədər görürəm, gah da ki, ələm,
Varmı bir həqiqət sevinclə yazam?

## Adamı insan edəcək

Qızıl qiymətlidir, dəyəri yüksək,
Dəmir tez pas atır, etməsən kömək,
Qızılı yığdılar, gərək olacaq,
Dəmirsə adamı insan edəcək.

ANAMIN NAĞILLARI

## Hiyləgər tülkü

Bir ovçu meşəyə saldı özünü,
Böyük çala qazdı örtdü üstünü,
Budaqla, yarpaqla ki, görünməsin,
Heyvanlar oraya tələyə düşsün.
Axşam bu tələyə düşdü bir aslan,
Dalıyca, canavar, tülküylə qaplan.
Səhər də çoxaldı onların sayı,
Düşdülər bir keçi, bir qaban, ayı.
Qaldılar iki gün heyvanlar burda,
Ac, susuz, heç nə də düşməyir yada.
Aslan nərildəyib tülküyə dedi,
Yaman acımışıq, saysana indi.
Kim artıq olacaq, onu yeyərik,
Bir təhər aclığa sonra dözərik.
Tülkü də əlüstü işi anladı,
Saymağa onları bir-bir başladı:
Tülkü, tülkü tünbəki,
Quyruq üstə lümbəki,
Aslan bizim ağamız,
Qaplan körpə çağamız,
Ayı zorba, pəzəvəng,
Qurd axmaq, çənəsi əng,
Qaban sözə baxmayan,
Keçini kimdir sayan,
Keçi qalarsa əgər,
Aslan acından ölər.
Beləcə, saymağı tülkü qurtardı,
Keçinin vayını aslan qopardı.
Tökülüb yedilər onu tərtəmiz,
Qalmadı keçidən bir əsər, bir iz.
Bir-iki gün keçdi, bərk acıdılar,
Bir-birinə bir çəp nəzər saldılar.
Aslan da dözməyib tülküyə dedi,
Tülkü lələ, saymaq gərəkdir indi.
Yerimiz çox dardır, özümüz də ac,
Bəlkə sən deyəsən, biz qılaq əlac,
Çömbəlib ədəblə tülkü oturdu,
Sonra da saymağa ayağa durdu:
Tülkü, tülkü tünbəki,
Quyruq üstə lümbəki,
Aslan bizim ağamız,
Qaplan körpə çağamız,
Ayı zorba, pəzəvəng,
Qurd axmaq, çənəsi əng,
Qabanı kimdir sayan,
Qalarsa burda yaman,
Acından ölər aslan.
Aslan pəncəsiylə qabanı vurdu,
Qaban ordaca canından oldu.
Tökülüb onu da yedilər tamam,
Beləcə getdi o həyatdan nakam.
Sonra da yeyildi qurd ilə qaplan,
Bir azdan acıdı yenidən aslan.
Tülkü fəndgir idi, bilirdi bir gün,
Salacaq ona da aslan öz gözün.
Yediyi ətlərdən yavaşça hərdən,
Yığırdı quyruğu altına qəsdən.
Nəhayət, çalada qaldılar üçü,
Aslan baxdı ayı zorbadır düzü,
Tülküyə boylandı, gördü ki, tülkü,
Altından götürüb, nəsə ötürdü.
Soruşdu, ay tülkü sən nə yeyirsən,
Bizə də versənə çeynədiyindən.
Tülkü yavaşcadan dedi ki, heç nə,
Budumu çeynərəm, qoy deyim sənə.
İki ayağım var, biri qalacaq,
Bir təhər dözərəm olaram çolaq,
Sonra da təzəsi bir gün çıxacaq.
Bunu eşidən tək, ayı və aslan,
Sordular tülküdən, demirsən yalan,
And-aman eylədi tülkü ürəkdən,
Toyuqdan tapmasam, ac qalsam hərdən,
Qıçımı yeyirəm, çox ləzzətlə mən.
Sonra da təzəsi yenidən çıxır,
Görürsüz, necə də mənə yaraşır.
Aslan da, ayı da tez soruşdular,
Biz yesək, bu qıçlar yenidən çıxar,
Əlbəttə, bildirdi hiyləgər tülkü,
Söylədi mümkündür, düşməsə bürkü,
Elə ki, göylərdə ayı gördünüz,
Qoparıb yeyərsiz, durub üzbəüz.
Səhəri çıxacaq yeni ayaqlar,
Beləcə aclıq da geridə qalar.
Aslan da, ayı da buna bənd idi,
Tülkü deyən kimi, onlar elədi.

Qana ki, bulaşdı aslanla ayı,
Hərə bir küncdəcə can verdi ayrı.
Ovçu səhər tezdən gəldi meşəyə,
Ki dəysin qurduğu həmin tələyə.
Ovçunun səsini eşitcək tülkü,
Uzandı meyittək, ürpəşməz tükü.
Qazdığı çalaya ovçu əyildi,
Gözünə üç heyvan cəmdəyi dəydi.
Tülkünü götürüb atdı kənara,
Düşündü ayının dərisini soya.
Tülküyə də elə bu gərək idi,
Ovçuya səmimi əlvida dedi.
Dönüb əda ilə bir də boylandı.
Nə yaxşı həyatda vardır axmaqlar,
Dolana bilməzdi məntək yaltaqlar.

# AĞILLI PİŞİK

İnsan ki, dünyaya bir zaman gəldi,
Ovçuluq etməyi gərəkli bildi.
Gəzib dolanardı çölü çəməni,
Ovlayıb yeyərdi ələ keçəni.
Onu seyr edirdi bir neçə zaman,
At, köpək və pişik daim uzaqdan.
Gördülər bu insan fərasətlidir,
Nəyi, necə, harda tutmağı bilir.
At dedi: gəl ona qulluqda olaq,
Bəlkə bu yol ilə salamat qalaq.
Köpək də qoşuldu onun fikrinə,
Söylədi ovundan verər mənə də,
Sümükdən, şəntirdən bir az yeyərəm,
Onun qulluğunda ömür sürərəm.
Pişik mırıldadı razı deyiləm,
Azad dolanmağı lazım bilirəm,
Mən də istərdim ki, onunla olum,
Amma keyfim harda gəldi dolanım.
Söhbətə qarışdı bu dəm bir camış,
Bu istək məndə də çoxdandır qalmış,
Bax, südümlə onu dolandıraram,
Bu yolla canımı mən qoruyaram.
Qərara gəldilər at bir yoxlasın,
Əvvəlcə danışıq gərək aparsın.
At dərhal təpələr, dağları aşdı,
İnsan tox olanda ona yanaşdı,
Ona ədəb ilə bir salam verdi,
Gəl səninlə saziş bağlayaq indi.
Ova çıxan zaman bərk yorulursan,
Mənimlə birlikdə əgər ki, olsan,
Ovuna asanca sən yetişərsən,
Hər işini dəstək alarsan məndən.
Bir şərtim var gərək onu söyləyəm,
Qış gəlsə yaman korluq çəkirəm,
Quru otla ələf versən yeyərəm.
Sənə də can-başla qulluq edərəm.
Köpək də, camış da gəlmək istəyir,
Bircə pişik hələ razı deyildir.
İnsan fikrə getdi, düşündü bir az,
Əlbəttə, imtina eyləmək olmaz.
Köpək gözləyirdi at qayıdacaq,
Gəlmədi axşama bir xəbər ancaq.
Səhər yollandı o atın dalıyca,
Gördü ki, bağlanıb at bir ağaca.
Ətrafa boylanıb ona yanaşdı,
Bir söz söyləmədi dili dolaşdı.
At dedi insanı razı salmışam,
Onunçün burada artıq qalmışam.
Bu dəm insan gəldi, köpəyi gördü,
Sənin nə şərtin var, əlüstü sordu.
Mən də ov etməyə kömək edərəm,
Həm də mağarada gözət çəkərəm.
Tutduğun ovundan bir az verərsən,
Etdiyim köməyə əhsən deyərsən.
İnsan qulaq asıb, razıyam dedi,
Camışın dalıyca onu göndərdi.
Camış da insanın yanına gəldi,
Nəhayət, onun da işi düzəldi.
Pişik dostlarını daha görmədi,
Ürəyi darıxdı, dözə bilmədi.
Gəldi o, insanın olduğu yerə,
Söylədi gəlmişəm ocağa görə,
Soyuqlar düşübdür, icazə versən,
Tonqalın yanında qızışaram mən.
Tonqal sönən zaman xəbər verərəm,
Çır-çırpı atarsan sən də ki o dəm.
İnsan dedi: yaxşı, icazə verrəm,
Bir şərtim də vardır, sübut eləsən.
Azı iki dəfə qulluq göstərsən,
Nə vaxt istəsən gəlib gedərsən.
Elə bu andaca, pişik sıçradı,
Bir yekə kəsəyən, o yaxaladı.
İnsan razı qaldı, bu olsun biri,
Qəflətən köpək girdi içəri.
İnsana bir qaban görmüşəm dedi,
İstəsən yerini göstərrəm indi.
İnsan tez sıçradı atın belinə,
Köpəyə dedi ki, gedək mənimlə.
Pişik xanım ilə tək qaldı orda,
Gördü ki, körpəsi düşmür heç yada.
Körpə oda tərəf iməkləyirdi,
Az qala ocağa o düşəcəkdi.
Pişik onunla oynadı qəsdən.
Ki, başı qarışsın yanmasın birdən.
Xanım gördü bunu, kişi gələndə,
Dedi, pişik qalsın həmişə bizdə,
Körpənin başını o yaxşı qatır,
Mənim də işlərə bax vaxtım çatır.
İnsan fərəh ilə pişiyə baxdı,
Onun şərtlərini yadına saldı.
Dedi ki, bizimlə sən dolanarsan,
Keyfin harda istər orda qalarsan.
O dəmdən insanlar həmişə deyir,
"Pişiktək ağıllı olmaq istəyir".